# ŞƏFQƏT QÜDRƏTLİ ŞAİR

**_«Müşfiq» — şəfqətli, mərhəmətli deməkdir. Yazımı şəfqətlə başlamağım heç də təsadüfi deyildir. Bəli, Mikayıl Əbdülqədir oğlu İsmayılzadə «Müşfiq» təxəllüsünü götürərkən özünün qəlbən şəfqətli, mərhəmətli ürəyə malik olmasına əsaslanırdı. O, başdan-ayağa şəfqət mücəssəməsi olmaqla, həm də xalqın qəlbində özünə əbədi heykəl qoyan sənətkar idi._**

*Vəznlər, misralar, qafiyələr, rədiflər onun əlində çox itaətkar və sözəbaxan idi. Müşfiq mahir bir sehrbaz kimi onları istədiyi şəklə sala bilir, istədiyi kimi onlardan istifadə edirdi…*

**Akademik Məmməd ARİF.**




Mikayıl Müşfiq — bu ad hər bir Azərbaycan vətəndaşının, Azərbaycan oxucusunun sevdiyi, əsərlərini dönə-dönə, sevə-sevə oxuduğu, fəxr duyduğu bir şair, sənətkardır. Uzun onilliklər keçib, lakin hər zaman o yad edilir, oxunur, sevilir. Bu onun şair qüdrətindən, şair xoşbəxtliyindən xəbər verir. Əcəba, nədir Müşfiqə olan bu dəyişməyən sevgi? Onun kökündə görəsən nə durur? Bunun bir cavabı var: fitri istedad, sənətə, sözə sevgi, dürüstlük, kişilik-mərdlik.

Mikayıl Müşfiqin şəxsiyyətini, yaradıcılığını təhlil edəndə əmin olursan ki, o, ulu yaradanın bizə-bəşəriyyətə bəxş etdiyi hədiyyəsidir. O, Allah vergisi, seçilmişlərdəndir.

Müşfiq 29 il ömür sürdü. Lakin bu qısa müddətdə on illəri, yüz illəri adlayacaq bir ömür salnaməsi yaratdı. Çoxunun arzusunda olduğu, uzun ömür sürərək nail ola bilmə-



"ƏNC İŞÇİ" gəzetəsinin X illiqinə ittihaf olynyr.

APREL ALAVLARЬ

(PROLETAR JAZЬCЬLARЬNDAN NUMYNƏLƏR)

AZƏRNƏŞR

Baqь — 1930

diyi, daim həsəd apardığı bir yüksək pilləyə — klassik pilləsinə yüksəldi, özünün əbədi imzasını yaddaşlara həkk elədi.

Müşfiq nadir söz sərraflarından idi. O, qaynar bulaq, çağlayan dağ şəlaləsinə bənzəyirdi. O, söz üçün məəttəl qalmaz, kasadlıq çəkməzdi. Onun şeirlərində sözlər mirvari kimi axırdı. O, daim söz axtarışında olaraq yeni obrazlar yaratmaq iqtidarında, qüdrətində idi.

Mahir söz sərrafı olan Müşfiq sözü sanki ram edir, onları mirvari kimi yan-yana düzür, rəqqas kimi oynada bilirdi.

Müşfiqin şeir dili çox axıcı, həzin, ürəyə yatımlı, oxucuya açıq, məhrəm idi. Onun şeirləri oxucusuna təqdim edildiyi andan, insanların qəlbinə nüfuz edir, onları düşündürür, xoş ovqat bəxş edirdi.

O, dünya klassiklərinin, Azərbaycan klassik ədəbiyyatının ənənələrindən məharətlə istifadə edərək, köhnəliklə yeniliyin vəhdətindən müasir ədəbiyyatımızın tələblərinə uyğun bənzərsiz sənət nümunələri yaratmışdır. Əsərlərində bənzərsizlik, üslubxüsusi diqqət çəkirdi. Ədibin əsərləri uşaqdan tutmuş böyüklərə, ixtiyarlara qədər bütün təbəqələri əhatə edirdi. O, hamının sevgisini qazanmışdı.

Bu gündə onun şeirlərini oxuyanda yeni mənaları, yeni çalarları, sətiraltı mesajlarını, çağırışlarını sezməmək mümkün deyildir. Onun şeirlərində vətənpərvərlik, lirizm də, bəşəri hiss və duyğular da var, torpağa, anaya, övlada, millətə, həyata sevgi də vardır. Uşaqların mənəvi, iç dünyasına yaxından bələd olan həyatsevər şairin uşaqlara həsr olunmuş şeirləri də var, özünün də gənclik eşqi ilə alovlanıb yandığı, mənsub olduğu gənclərə, onların sevgi dünyalarına ünvanlanan romantik şeirləri də vardır. Şux, axıcı qəzəlləri, sinəzən tərzdə yazdığı şerləri də var, gözəl, yaddaqalan poemaları da vardır. Başqa sözlə, şeirlərinin hər biri bir ümmandır, bir xəzinədir. Onların sehrinə düşmək isə özgə bir xoşbəxtlikdir.

Şeirlərinin əksəriyyəti ölməz mahnılara çevrilib. Bu, təsadüfi deyildir. Çünki, Müşfiqin genində, qanında musiqi mayası var idi. Həssas musiqi duyumuna malik olan Müşfiq pianoda, tarda gözəl ifalar edərdi. Sanki, şeirlərini özünün ifa etdiyi musiqi təranələrinin müşayiəti ilə yazırdı. Təbii ki, bu şeirlər asanca mahnıya çevrilirdi, könül oxşayırdı. O, həmçinin, əsərlərində ayrı-ayrı musiqi alətlərini də vəsf edirdi.

Tar, saz alətləri isə bu sırada xüsusi əhəmiyyət kəsb edirdi. Bu alətlərə Sovet rejimi tərəfindən qadağa qoyulduğu bir vaxtda Müşfiq ölümünü gözünün qarşısına alaraq



M. Muşfik.

DAŞ KARTALA.

(Bejnəlxalk qənclər qunu munasəbətilə).

Illərcə dajandьn arkan divarda
Hər qələn jolçyja dəhşətlə bakdьn.
Qozundə bir oldy kьş da, bahar da,
Kəlblərdən bir acь yçyşlar sarkdьn.

Ufukdən-ufukə çaldьgьn kanat,
Hər jerə ygyrsyz bir qolqə saldь;
Pəncəndə hьçkьrdь bir jьgьn kanat,
Butun çьrpьnanlar suqyta daldь.

Nə ryzqar, nə boran, nə kar, nə tipi
O sərt urəqinə etmədi tə'sir;
Bir juqsəq divarda dyrdyn dag qibi,
Əmrundə acьlьgь bilmədən nədir.

bu alətlərin müdafiəsinə qalxdı, rejimə üsyan etdi:

*Oxu, tar, oxu, tar.*
*Səsindən ən lətif şeirlər dinləyim.*
*Oxu, tar, bir qədər*
*Nəğməni su kimi alışan ruhuma çiləyim.*
*Oxu, tar, oxu, tar.*
*Səni kim unudar?*
*Ey geniş kütlənin şirini, şərbəti,*
*Alovlu sənəti.*

Müşfiq ustad sənətkar, istedadlı qələm sahibi, söz sərrafı, şair-tərcüməçi idi. Sevilən pedaqoq kimi şagirdlərinin və müəllim heyətinin sevimlisi idi. Bütün bunlarla yanaşı, o, sözün əsl mənasında sədaqətli, vəfalı, sabit qədəm dost idi. Ustadlarına, müəllimlərinə hörmətlə yanaşar, onların yanından ayrılmazdı. O, bütün şair və yazıçılarla səmimi münasibət qurar, ünsiyyətdə olardı. Lakin, Azərbaycan ədəbiyyatında mövcud olmuş Cavid-Cavad-Müşfiq dostluğu isə sarsılmaz dostluğun bariz nümunəsi idi. Həsəd aparılası, üçünü də, belə demək mümkünsə, məhvə aparan monolit dostluq. Ölümünə imza atmaqla, Müşfiq heç bir zaman dostlarına arxa çevirmədi, onlara xəyanət etmədi, onları satmadı. Bu, onun kişilik, mərdlik mücəssəməsi olmasından xəbər verirdi.

Müşfiq heç bir zaman sənətdə konyukturanı sevməzdi. Sənətə təsadüfi gələnləri qəbul etməzdi. Bunu onun şeirlərində apaydın görmək mümkündür:

*Şairə ilhamdan maya gərəkdir,*
*Anasız çocuğa daya gərəkdir.*
*Şairəm, söyləyir yerindən duran*
*Adamın üzündə haya gərəkdir.*

Bəli, Mikayıl Müşfiq gənc yaşında, qarlı, şaxtalı bir qış günündə — 1938-ci il yanvarın 6-da qətlə yetirildi. Əsərlərinə qadağa qoyuldu. Əksəriyyəti məhv edildi. Sağlığında on, ölümündən sonra on birinci «Çağlayan» kitabı işıq üzü gördü.

Bədxahları elə bildi ki, onu fiziki aradan qaldırmaqla, ədibi Azərbaycan ədəbiyyatı tarixindən, xalqın yaddaşından silə biləcəklər. Lakin yanıldılar. Özləri tarixin zibilliklərinə tullandılar. Lakin Müşfiq ölümü ilə ölümsüzlük qazandı, xalqın ürəyində əbədi heykəlini ucaltdı, ədəbiyyat tariximizdə sönməz əbədi məşələ çevrildi. Alovlu şair kimi könüllərə işıq saçdı, onları sevgiyə, ülviyyətə, şəfqətə, mərhəmətə, xoş gələcəyə səslənən qiymətli sənət inciləri yaratmaqla, klassik kimi Azərbaycan ədəbiyyatı tarixində özünün cığırını açdı, özünün ölməz, uca heykəlini ucaltdı, əbədi sönməz məşələ çevrildi:

*Mənim könlüm deyir ki,*
*Hələ bunlar nədir ki...*
*Böyük günlər, şanlı günlər, şən günlər,*
*Yoluna düşən günlər*
*Hələ qarşımızdadır!*

Fiziki olaraq, bizi Müşfiqdən xeyli zaman ayırır. Lakin, bu zaman bizi həm də Müşfiqə yaxınlaşdırır, sanki Müşfiq hər gün Günəş kimi doğur. Zaman nə olursa, olsun Müşfiq xatırlanır, anılır, sevilir. Deməli, o əbədiyaşardır. Heç bir zaman qocalmayan, yaddaşlarda 29 yaşlı yaraşıqlı, həyatsevər, gülərüz, şəfqət ürəkli, şəfqət qüdrətli bir gənc kimi qalacaq klassik şairimiz Müşfiq, ruhun şad olsun! Özün də dediyin kimi bəxtiyar şairsən, bu bəxtiyarlıq sənin xalqına, millətinə, vətəninə, dövlətinə, sənətinə olan sonsuz sevginin, məhəbbətin təzahürüdür. Solmaz, təravətli bahar kimi:

*Həyatdan doymayan, işdən doymayan,*
*Əfsanə sözlərə məhəl qoymayan,*
*Könlünü, gözünü verib işinə,*
*Baxıb həyatının yüksəlişinə,*
*Xalqılə titrəyən, xalqılə gülən,*
*Vətənçin yaşayan, vətənçin ölən*
*Səmimi bir insan nə bəxtiyardır!*

Akademik Məmməd Arifin arxivindən əldə etdiyim, «Gənc işçi» qəzetinin 10 illiyinə həsr olunmuş 1930-cu ildə nəşr olunmuş «Aprel alovları» məcmuəsində dərc olunan və Mikayıl Müşfiqin seçilmiş əsərlərində təhriflərə və düzəlişlərə məruz qalan aşağıdakı şeiri orijinalda sizə təqdim edirəm.

**DAŞ QARTALA**

*Beynəlxalq gənclər günü münasibətilə*

*İllərcə dayandın arxan divarda,*
*Hər gələn yolçuya dəhşətlə baxdın,*
*Gözündə bir oldu qış da, bahar da,*
*Qəlblərdə bir acı uçuşla sarxdın.*

* * *

*Üfüqdən üfüqə çaldığın qanat*
*Hər yerə uğursuz bir kölgə saldı;*
*Pəncəndə hıçqırdı bir yığın qanat,*
*Bütün çırpınanlar sukuta daldı.*

* * *

*Nə ruzgar, nə boran, nə qar, nə tipi*
*O sərt ürəyinə etmədi təsir.*
*Bir yüksək divarda durdun «dağ» kibi*
*Ömründə acılığı bilmədən nədir.*

* * *

*Çulğadı süzdüyün qaldırımları*
*Bir yığın səfalət, bir yığın acı.*
*Çaxarkən hirsinin yıldırımları,*
*Dəydi umuzlara ölüm kırbacı.*

* * *

Gözlərin mıxlıydı ellərə tək-tək,
Əlində dik dağlar bir oyuncaqdı.
Kinli ürəklərdə bəslənən şimşək
Başında patladı, gözündə çaxdı.

* * *

Əvət, qaynağından aman bulmayan
Zavallı insanlar bir gün köpürdü.
Dərələr, təpələr eylədi üsyan,
Bağrına zəhərli bir güllə vurdu.

* * *

Bizim dünyamızın hakim işçisi
Qaldı öksüzlərin ahu-zarına,
Dərdə düşənlərin olub bəkçisi,
Son verdi sərsəri uçuşlarına.

* * *

Dönüb bir tufana, tutdu yolunu,
Sarsıtdı aləmi onun buyruğu;
Qırdı şəhpərini, kəsdi qolunu
Sağlam bir işçinin ağır yumruğu!

**1929-cu il.**

*Qafar ƏSGƏRZADƏ.*
**Əməkdar jurnalist, pedaqogika üzrə fəlsəfə doktoru, dosent.**

